# İNFORMASİYA VƏ RƏQƏMSAL MEDİA SAVADLILIĞI XƏBƏR MƏNBƏLƏRİ İLƏ İŞ KONTEKSTİNDƏ

**Səbinə İzzətli**

*BDU, Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının doktorantı*
*izzatli. sabina. vaqif@bsu. edu. az*
*Orcid id: 0000-0003-0091-4905*

**Xülasə**

*İnformasiya heç bir dönəm bu qədər yayğın və əlçatan olmayıb. Təkcə bu amil belə yetərlidir ki, media savadlılığı məsələsi bir daha gündəmə gətirilsin. Peşəkar medianın nə olduğunu, informasiyanı faktdan ayırmağı, mediada etik dəyərləri, hüquqi öhdəlikləri bilən, savadlı toplumlarda ictimai qınaq, tənqidi dəyərləndirmə də sağlam olur. Məhz media savadlılığı ilə silahlanmış cəmiyyətlərdə rəqəmsal mediada cərəyan edən yalan və doğru xəbərləməni ayırd etmək mümkündür.*

*Bu məqalədə öncəliklə media savadlılığına aid müxtəlif ədəbiyyatlarda verilən təriflərə nəzər yetirilir. Daha sonra yerli mediada media savadsızlığı probleminə toxunulur. Rəqəmsal mühitdə yerli xəbər saytlarında informasiya qaynaqları ilə iş zamanı yol verilən pozuntular konkret nümunələr əsasında incələnir. Eyni zamanda media savadlılığının artırılması ilə bənzər problemləri necə aradan qaldırmağın mümkün olduğundan bəhs olunur.*

***Açar sözlər:** media savadlılığı, rəqəmsal media, yeni media, xəbər saytları, xəbər mənbələri, anonim qaynaqlar, media savadsızlığı, ictimai qınaq, media tənqidi.*

**Giriş:**

Rəqəmsal kommunikasiya dönəmində cəmiyyətin medianın necə fəaliyyət göstərdiyini bilməyə, topluma yararını anlamağına ehtiyacı var. Hər şeyin şəffaf və əlçatan olduğu bu rəqəmsal məkanda insanların media savadlılığına əvvəlkindən daha çox ehtiyacı var. Müasir dövrdə cəmiyyətin ən gənc fərdlərindən başlayaraq insanların çoxu mass media, populyar mədəniyyət və rəqəmsal media ilə birlikdə böyüyür, fəaliyyət göstərir. İllərdir təhsil işçiləri, islahatçılar, ictimai xadimlər və digərləri media savadlılığı anlayışını irəli çəkərək bunun təbliğatını edir. Səbəbi qısaca qeyd etməli olsaq, media savadlılığı olan toplum passiv istehlakçıdan aktiv iştirakçıya, tənqidi istifadəçiyə çevrilə bilir. Və yalnız belə bir mühitdə medianın peşəkar standartlarına dəyər verilir. Media savadlılığı təkcə media ilə birbaşa əlaqəsi olanlara deyil, elə informasiyanı toplayan, istehsal edən media nümayəndələrinə də gərəkdir.

Rəqəmsal dünyada jurnalistikada peşəkarlıqla həvəskar fəaliyyət arasındakı incə cizgi yox olmaq üzrədir. Bu baxımdan informasiya ötürmə bolluğunda ən kiçik savadsızlıq belə peşəkarlığa xələl gətirə bilir. Odur ki, media savadlılığına həm toplum olaraq, həm də peşəkar media nümayəndələri olaraq ehtiyac var. Savadlanma prosesi isə daima davam etməli, dəyişən dünyada, texnoloji inkişaf prosesində media savadlılığını güncəl tutmaq qaçılmazdır.

Məqalədə media savadlılığı konkret olaraq xəbər qaynaqları kontekstində təqdim olunur. Məqsəd ondan irəli gəlir ki, bu mövzuda həssas məsələ olan





saxta xəbərlərin elə kökündə, həm də mənbələrlə manipulyasiya durur.

Medianın İnkişafı Agentliyi (MEDİA) 10 May, 2023-cü il tarixli sorğumuza verdiyi açıqlamaya görə, Azərbaycanda 250 media subyekti qeydiyyatdan keçib. Bunun böyük əksəriyyəti də elə xəbər saytlarıdır. Metrix. az portalının İyun ayı üzrə reytinq göstəricisinə görə, Publika. az, Axar. az və Bizim. media saytları daha çox baxış sayına malikdirlər. Bu səbəbdən, adı çəkilən saytların hər birində ayrı-ayrılıqda bir gün olmaqla 4, 5, 6 İyun, 2023-cü il tarixlərində dərc olunan xəbər kontenti incələnir. Nəticələr məqalədə təhlil olunur.

**İnformasiya və Rəqəmsal media savadlılığı**

Media savadlılığı daha çox məlumatlı vətəndaş olmağa kömək edə biləcək mühüm bacarıqdır. Avropa Komissiyasının qəbul etdiyi tərifdə qeyd olunur ki, media savadlılığı, ümumiyyətlə, mediaya daxil olmaq, medianın və media məzmununun müxtəlif aspektlərini anlamaq və tənqidi qiymətləndirmək və müxtəlif kontekstlərdə kommunikasiyalar yaratmaq bacarığı kimi müəyyən edilir (Avropa Komissiyası, 2007). Bu tərifə uyğun olaraq, media savadlılığının müxtəlif səviyyələrinə aşağıdakılar daxildir:

✓ Qəzetlərdən tutmuş virtual qurumlara qədər bütün mövcud mediadan fəal şəkildə istifadə etmək, buraya interaktiv televiziya, internet axtarış motorlarından istifadə və əyləncə, mədəniyyətlərarası dialoq, təhsil və gündəlik həyat proqramları (məsələn, kitabxanalar, podkastlar vasitəsilə) daxil olmaqla medianın potensialından daha yaxşı istifadə;

✓ Məzmunun həm keyfiyyəti, həm də dəqiqliyi baxımından mediaya tənqidi yanaşma (məsələn, məlumatı qiymətləndirə bilmək, müxtəlif mediada reklamla məşğul olmaq, axtarış sistemlərindən ağıllı şəkildə istifadə etmək);

✓ Media texnologiyalarının təkamülü insanlara şəkillər, məlumat və məzmun yaratmağa və yaymağa imkan verdiyi üçün mediadan yaradıcı şəkildə istifadə;

✓ Media iqtisadiyyatını və plüralizmlə media mülkiyyəti arasındakı fərqi başa düşmək;

✓ İstehlakçılar və məzmun istehsalçıları kimi ikiqat potensiala malik gənc nəsil üçün vacib olan müəllif hüquqları məsələlərindən xəbərdar olmaq. (Avropa Komissiyası, 2007)

Kanadada yerləşən Ontario Media Savadlılığı Assosiasiyasının (AML) tərifində isə təhsil aspektinə xüsusi diqqət yetirilir:

"Media savadlılığı kütləvi informasiya vasitələrinin mahiyyəti, onların istifadə etdiyi üsullar və bu üsulların təsiri haqqında məlumatlı və tənqidi anlayışın inkişaf etdirilməsi ilə bağlıdır. Bu, tələbələrin medianın necə işlədiyi, necə məna yaratdıqları, necə təşkil edildiyi və reallığı necə qurduqları barədə anlayışını və hissiyatını artırmaq məqsədi daşıyan təhsildir. Media savadlılığı, həm də tələbələrə media məhsulları yaratmaq bacarığını təmin etmək məqsədi daşıyır". (Duncan, 2006)

Rəqəmsal dövrdə media savadlılığını fərqli şərh edənlər var. Ancaq hesab edirəm ki, bu təriflərin ən doğrusu nəsillər və formatlar arasında uçurum yaratmadan, əksinə, onları bir bütöv halda ələ alaraq irəli sürülənlərdir. Belə

ki, media savadlılığı "panmedia"nı əhatə edir, çünki o, "ənənəvi" və ya elektron (rəqəmsal) vasitələrlə əldə edilən bütün mürəkkəb, vasitəçi simvolik mətnlərin şərhini ehtiva edir. Bunun səbəblərindən biri çap, audiovizual və kompüter mediasını, eləcə də mobili əhatə edən, inteqrasiya olunmuş media mühitinin olmasıdır. Bu inteqrasiyanın nəzəriyyəsi ondan ibarətdir ki, kompüterlər televizoru əvəz etmir, necə ki televiziya çapı əvəz etmir. (Livingstone, 2004)

Daha bir media nəzəriyyəçisi Gilster rəqəmsal media savadlılığını müxtəlif rəqəmsal mənbələrdən alınan məlumatları müxtəlif "səriştələr siyahısı" ilə maraqlanmadan başa düşmək və istifadə etmək bacarığı kimi izah edir, çox vaxt məhdudlaşdırıcı olduğu üçün tənqid olunur. Rəqəmsal savadlılığın dörd əsas səriştəsi bunlardır:

- ✓ İnternet axtarışı,
- ✓ Hipermətn naviqasiyası,
- ✓ İnformasiyanı düzgün mənbələrdən toplama,
- ✓ Məzmunun qiymətləndirilməsi. (Bawden, 2008)

Bəzi nəzəriyyəçilər iddia edir ki, informasiya savadlılığı bütövlükdə şifahi ünsiyyətlə bağlıdır (Koltay, 2007). Bu, Attfield və başqalarının (2003) fikirlərinə bir növ əks arqumentdir. Çünki onlar informasiya savadlılığının əsas hissəsi olan məlumat axtarışının olduğunu vurğulayırlar. Və bu axtarışın da daha çox yazmaqla gerçəkləşdiyini əsas gətirirlər.

Bu təriflərin hamısı bəzi ümumi elementləri bölüşür. Onların hamısı rəqəmsal media haqqında tənqidi düşünməyi bacarmağın və rəqəmsal mediadan məsuliyyətli şəkildə istifadə etməyin vacibliyini vurğulayır. Həmçinin rəqəmsal medianın mürəkkəb və daim dəyişən mənzərə olduğunu və rəqəmsal media savadlılığının davamlı bir proses olduğunu xatırladır.

**Yerli xəbər saytlarında rəqəmsal media savadsızlığı**

Rəqəmsal dünyada informasiya əldə edənlə onu istehsal edən arasındakı sərhədlər yox olmaq üzrədir. Artıq informasiyaya əli çatan hər kəs rəqəmsal alətlərlə xəbəri istehsal edir və ötürür. Bu operativlik bərabərində bir çox çətinliklər gətirir ki, onun da ən çox müzakirə olunanı elə etik normalardır. Təəssüflər olsun ki, bəzən bu normaları görməzdən gələn elə peşəkar jurnalistlər, media qurumları da olur. "Birinci mən" tələşı ilə paylaşılan xəbərlərdə yoxlanılmamış məlumatlarla yanaşı, mənbələrdən yanlış istifadə, eləcə də, mənbə gizlətmə hallarının şahidi oluruq. Yerli xəbər saytlarının xəbər kontentini incələyərkən anonim qaynaqlara da rast gəlirik. Xəbər təkcə anonim qaynaqlara əsalanaraq yazılmamalıdır.

*"Bu, kobud səhvdir. Anonim qaynaqdan gələn informasiya yaxşı jurnalist araşdırmasının, analitik yazının hazırlanmasına təkan ola bilər. Amma bütünlükdə yazınız anonim qaynaqların üzərində durursa, bu şəhərimizdə tikilən yeni binalara oxşayacaq; 16 mərtəbəli binanın konstruksiyası 6 metrlik özülün üzərində qurulur. Belə pis memar olmayın!"*[13]

Azərbaycanın ilk reytinq ölçən portalı olan www. metrix. az-a əsasən,

13 Bəşirli A., Kərimli A., Vəkilova D. "Xəbərçilik"., Bakı, 2007. s. 105





İyun, 2023-cü ildə ən reytinqli top üç xəbər saytı bunlardır: Publika. az, Axar. az, Bizim. media. Bu faktı əsas götürərək, hər üç saytın xəbər kontentini mənbələrlə iş kontekstində bir gün boyunca incələdik.

Publika. az saytı 4 İyun, 2023-cü il tarixində "Xəbərlər" kateqoriyasında 123 xəbər yerləşdirib. Bunların 98-ində xəbərin mənbəyi vurğulanır. 18 xəbərin qaynağı sosial mediadan götürülüb, təəssüflər olsun ki, bu zaman konkret hiperlinklərlə istinad demək olar ki, mövcud deyil. 16 mənbə isə anonim olaraq qeyd olunur. Bu zaman mənbələr məchul növdə qeyd olunur. Örnək olaraq, "Rusiya KİV-nə istinadən... XİN-dən verilən məlumata görə... Nazirlikdən bildirilib. . ." tərzində xəbər qaynaqlarını vurğulamaq olar. Toplam 25 xəbərdə isə ümumiyyətlə mənbə yoxdur. Bir xəbərdə isə mənbənin adı açıq yazılsa da, istinad yoxdur, mənbə bunu harada deyib məlum deyil.

Axar. az saytı 5 İyun, 2023-cü il tarixində "Xəbər xətti" rubrikasında 136 xəbər yerləşdirib. Bunların 122-də xəbərin qaynağı qeyd olunur. Publika. az ilə müqayisədə burada sosial mediadan qaynaq olaraq istifadə daha azdır, cəmi 9 belə xəbər qeydə alınıb. 14 xəbərin isə mənbəyi yoxdur. Anonim mənbələrdən istifadəyə gəldikdə isə say 13-dür. 36 xəbərdə isə mənbənin adı açıq yazılsa da, istinad yoxdur, mənbə bunu harada deyib bilinmir. Örnək xəbər:

**Xəbərin lidi:** *"Ruslar ümid edirlər ki, hava zərbələri Ukrayna ordusunun əks-hücum əməliyyatları zamanı müdafiə qabiliyyətini zəiflədəcək. "*

**Xəbərin istinadı:** *"Axar. az xəbər verir ki, bunu Ukrayna Baş Qərargah rəisinin keçmiş müavini, general-leytenant İqor Romanenko deyib"*[14].

Bizim. media saytı 6 İyun, 2023-cü il il tarixində "Bütün xəbərlər" kateqoriyasında 116 xəbər yerləşdirib. Bunların 98-ində xəbərin mənbəyi vurğulanır. 4 xəbərin qaynağı sosial mediadan götürülüb, təəssüflər olsun ki, burada da konkret hiperlinklərlə istinad demək olar ki, mövcud deyil. Bu, ona görə önəmlidir ki, oxucu birinci mənbəni görə bilir, ən azından xəbərin şəffaflığına inanmış olur. Sosial media qaynaq olaraq heç də hər zaman güvənilmir. Bu durumda, xüsusən də, sosial mediadan qaynaq olaraq istifadə edən media qurumları daha həssas olmalı, konkret linklərlə qaynağa keçid verməlidirlər. Hətta yayımlanmamışdan qabaq, həmin mənbə yoxlanılmalı, daha sonra paylaşılmalıdır. Örnək xəbər:

Xəbərin lidi: "Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrail Knessetinin Xarici İşlər və Müdafiə Komitəsinin sədri Yuli Edelşteyn və Knesset üzvü Ram Ben Barala görüşüb".

Xəbərin istinadı: "Bizim. Media xəbər verir ki, bu barədə İsrailin Azərbaycandakı səfiri Corc Dik rəsmi "Twitter" hesabında məlumat verib".

Örnəkdən də göründüyü kimi, məlumatın paylaşıldığı birinci mənbəyə keçid ala bilmirik. Jurnalist burada sadəcə sözügedən tvitin ekran görüntüsünü yazıda şəkil olaraq yerləşdirib. Bu isə saxta tvitlərin istehsal olunduğu rəqəmsal dünyada yetərli sübut deyil.

14 "Kiyevin əks-hücum hazırlığı: Rusiya zərbələri artırdı", https://axar. az/news/planet/752252. html, 04. 05. 2023

Bizim. media qeyd olunan tarixdə yayımladığı xəbərlərin 23-ündə isə mənbə anonim olaraq qeyd olunur. Bu zaman istinadlar məchul növdə qeyd olunur. Toplam 18 xəbərdə isə ümumiyyətlə mənbə yoxdur. 21 xəbərdə isə mənbənin adı açıq yazılsa da, konkret istinad yoxdur, mənbə bunu harada deyib məlum deyil.

**Nəticə:**

Media savadlılığı mövcudluğu yeni rəqəmsal texnologiyalar və qeyri-peşəkarların artan iştirakı ilə daha geniş və rəngarəng mediadan şüurlu və ya şüursuz istifadə edən bütün vətəndaşlar üçün vacibdir. Beləliklə, media savadlılığı həm ibtidai, həm orta, həm də ali təhsildə öz rolunu ya təkbaşına, ya da çox güman ki, çoxlu və ya multimodal savadlılığın bir hissəsi kimi tapmalıdır.

Media savadlılığı rəqəmsal dünyada daha da önəmli məsələyə çevrilib. Bələki, hətta peşəkar media subyektlərində belə media savadlılığı dərslərinə ehtiyac duyulur. Xüsusən də, informasiya ilə məşğul olan jurnalistlər operativliyin kölgəsi altında çox vaxt peşəkar standartları unudur, ona xələl gətirir. Yerli xəbər saytlarında qaynaqların işlənmə formasına diqqət yetirərkən görürük ki, jurnalistlər birinci əl qaynaqlardan çox, ikincili qaynaqlara üstünlük verirlər. İkincili qaynaqlara digər KİV-lər aiddi. Bu sizin yazınızın zəifliyidir, bir də "tənbəllər" jurnalistikasıdır. Çalışın özünüz informasiya tapasınız (Bəşirli A., Kərimli A., Vəkilova D. 2007).

Yerli xəbər saytlarında qaynaqlarla bağlı müşahidə etdiyimiz digər bir məsələ də jurnalistlərin xəbər qaynaqlarını məchul növdə verməsidir. Bunun kökündə də media savadsızlığı dayanır. Jurnalistlər bilməlidirlər ki, anonim qaynaqlardan istifadə müsbət hal sayılmır və yalnız çox çıxılmaz məqamlarda istifadə oluna bilər. Misal, informasiyanın cəmiyyətdə çox önəmli çəkisi var və qaynağı məlum növdə yazmaqla onun həyatını təhlükəyə atmış olursunuz.

Yekun olaraq, rəqəmsal media savadlılığı 21-ci əsrdə hər kəs üçün vacib bir bacarıqdır. Rəqəmsal media ortamında fasiləsiz xəbər mübadiləsində olunduğumuz bir dünyada bu xəbərlərin qaynaqları haqqında tənqidi düşünə bilmək və rəqəmsal mediadan məsuliyyətli şəkildə istifadə etməyi bacarmaq həm adi vətəndaş üçün, həm də elə peşəkar jurnalistlər üçün olduqca vacibdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Attfield S., Blandford A., and Dowell J. (2003) Information seeking in the context of writing: a design psychology interpretation of the problematic situation. Journal of Documentation 59(4): 430–453.
2. Bawden D (2008) Origins and concepts of digital literacy. In: Lankshear C and Knobel M (ed.) Digital Literacies: Concepts, Policies, and Practices. New York: Peter Lang, 17–32 Bəşirli A., Kərimli A., Vəkilova D. (2007) "Xəbərçilik", https://bakustate. academia. edu/KafedraRtv
3. Duncan B (2006) Media Literacy: Essential Survival Skills for the New Millennium. School Libraries in Canada 25(4): 31–34. Available (consulted July 2009) at: http://www. cla. ca/casl/slic/254medialiteracy. htm
4. Livingstone S (2004) Media literacy and the challenge of new information and







communication technologies. Communication Review 7(1): 3–14 European Commission (2007) A European Approach to Media Literacy in the Digital Environment. Available (consulted July 2009) at: http://ec. europa. eu/avpolicy/media_literacy/docs/com/en. pd

5. Gilster P (1997) Digital Literacy. New York: Wiley Koltay T (2007) A New Direction for LIS: The Communication Aspect of Information Literacy. Information Research 12(4). Available (consulted July 2009) at: http://informationr. net/ir/12-4/colis/colise06. html
6. "Kiyevin əks-hücum hazırlığı: Rusiya zərbələri artırdı", https://axar. az/news/planet/752252. html, 04. 05. 2023
7. "Prezidentin köməkçisi İsrail nümayəndə heyəti ilə regional məsələləri müzakirə edib – FOTO", https://bizim. media/az/siyaset/140088/, 06. 06. 2023


**Sabina Izzatli**

### Information and digital media literacy in the context of working with news sources


**Summary**

*Information has never been so widespread and accessible. This factor alone is enough to raise the issue of media literacy once again. Public condemnation and critical evaluation are also healthy in educated societies that know what professional media is, how to separate information from facts, ethical values, and legal obligations in the media. It is in societies armed with media literacy that it is possible to distinguish between false and true news in digital media.*

*This article first looks at the definitions given in various literature related to media literacy. Then the problem of media illiteracy in the local media is touched upon. Violations committed while working with information resources on local news sites in Azerbaijan in the digital environment are analyzed based on specific examples. At the same time, it is discussed how it is possible to eliminate similar problems by increasing media literacy.*


***Keywords:*** *media literacy, digital media, new media, news websites, news sources, anonym sources, media illiteracy, public censure, media criticism.*

**Сабина Иззатли**

### Информационная и цифровая медиаграмотность в контек-сте работы с новостными источниками


**Резюме**

*Информация еще никогда не была так распространена и до-ступна. Одного этого фактора достаточно, чтобы вновь поставить вопрос о медиаграмотности. Общественное осуждение и критиче-ская оценка также полезны в образованных обществах, которые знают, что такое профессиональные СМИ, как отделить информа-цию от фактов, этические ценности и юридические обязательства в СМИ. Именно в обществах, вооруженных медиаграмотностью, можно отличить ложные и правдивые новости в цифровых СМИ.*

*В этой статье сначала рассматриваются определения, дан-ные в различной литературе, связанные с медиаграмотностью. За-тем затрагивается проблема медийной безграмотности в местных СМИ. На конкретных примерах анализируются нарушения, совер-шенные при работе с информационными ресурсами местных но-востных сайтов в Азербайджане в цифровой среде. При этом об-суждается, как можно устранить подобные проблемы за счет по-вышения медиаграмотности.*

***Ключевые слова:*** *медиаграмотность, цифровые медиа, но-вые медиа, новостные сайты, источники новостей, анонимные ис-точники, медианеграмотность, общественное порицание, медиа-критика.*